# ATAMIN ANIM GÜNÜ



Ramiz MÖVSÜM

Ata, dövrəndəyik bu qəmli gündə;
Sən ki, möhnətdəsən, başa düşürük.
Öpürük şəklini qəbir evində,
Səninlə xəyalən biz görüşürük...

Biz işıqdayıq, sənsə zülmətdə,
Bəlkə yerlərimiz səhv düşüb bizim...
Dərdini çəkməkdən, çatdım son həddə;
Əyildi qamətim, tutuldu gözüm.

Bizə ayrılığı sən necə qıydın?..
Partlayır ürəyim, bircə danış, din.
Sən ki, bu dünyaya hədsiz bağlıydın,
Niyə süqut etdi yaşamaq eşqin?..

Görürəm yarımçıq qalan işini,
Əlimi göynədir əlin dəyən yer...
Qoymaq istəmirəm məzarda səni;
Ata, təki mənə sən əlini ver!..

Qoyub, hara getdin bu təbiəti?..
Aldığım havanı sən də al, ata.
Heyif ki, gördüyüm xəyalın idi,
Əlin uzanıqlı qaldı həyata!..

13 oktyabr, 2025.